Qurban Abbasov – 80

# Gəncə səhnəsinin unudulmaz aktyoru

**Deyirlər, elə insanlar var ki, dünyaya gələndə istedadları da onlarla bərabər doğulur. Bu kimi insanlar elə öz istedadlarının sayəsində zamanın və dövrün tanınmış simalarına çevrilə bilirlər. Gəncə Dövlət Milli Dram Teatrının istedadlı aktyorları sırasında bu gün də adı tez-tez xatırlanan, mərhum Əməkdar artist Qurban Abbasov da həmin şəxsiyyətlərdən, istedadı ilə sevgi qazanan sənətkarlardan olub.**

Onun sənət yolu bir teatrın yaradıcılıq yoludur, səhnəyə gətirdiyi yeniliklər bir teatrın yenilikləridir. Yaratdığı obrazlar epizodik olsa belə, tamaşaçının yaddaşına əbədi həkk olunub, xalqının milli sərvətinə, teatr tarixinin parlaq səhifəsinə çevrilib. Əlbəttə, hər bir tamaşaçı teatra öncə bir-iki sevimli aktyorunun yaradıcılığına, istedadına görə gəlir. Hər zaman olduğu kimi, tamaşaçını ən çox maraqlandıran məhz aktyor oyunu olur. Sadə dramatik rollarda, tipik-xarakterik personajların təqdimatında uğur qazanan, maraqlı lirik-psixoloji qəhrəman obrazları ilə yaddaşlarda yaşayan Qurban Abbasov özü işıqlı bir obraz kimi gözlər önündə canlanır.



Qurban Məmiş oğlu Abbasov 1944-cü ildə Göyçə mahalının Qarabağlar kəndində dünyaya gəlib. 1949-cu ildə ailəsi ilə birlikdə Bakıya köçüb. Valideynlərini vaxtsız itirdiyindən qardaşının himayəsində böyüyüb. 1951-ci ildə Keşlə qəsəbəsi S.Vurğun adına orta məktəbə daxil olub və 1958-ci ildə yeddiillik təhsilini bitirib. Daha sonra Göycay Kənd Təsərrüfatı Texnikumunda oxuyub və 1962-ci ildə oranı bitirib. 1963–1968-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram və kino aktyorluğu" fakültəsində ali təhsil alıb. Sonra təyinatla Gəncə Dövlət Milli Dram Teatrına göndərilib və 30 il yalnız bu teatrın səhnəsi ilə bağlı olub.



Onun yaradıcılığına nəzər salarkən ən kəskin dramatik vəziyyətlərdə belə daxili təmkinini böyük ustalıqla saxlaya bilməsinin şahidi olursan. Səhnədə hər zaman obrazın psixoloji duyumunda həssas aktyorluq qabiliyyətinin olması ilə yanaşı, ifa etdiyi personajın daha xarakterik cəhətləri və cizgilərini qabarıq göstərdiyini də görməmək mümkün deyildi. Qurban Abbasov Gəncə Dövlət Milli Dram Teatrında milli klassik dramaturgiyamızın, çağdaş Azərbaycan müəlliflərinin müxtəlif janrlı, həmçinin tərcümə əsərlərində səhnəyə qoyulan tamaşalarında müxtəlif səpkili obrazlar qalereyası yaradıb.

Professor Bağır Bağırov onun yaradıcılığı haqqında yazırdı: "Yusif Əzimzadənin 1975-ci ildə Gəncə Dövlət Milli Dram Teatrının səhnəsində hazırlanan "Unutmayın" pyesində Qurban Abbasovun aktyorluq məharəti ilə yaratdığı Əli Dadaşov surəti öz daxili temperamenti, nitq mədəniyyəti, obrazın xarakterini açmaq üçün tapılan cizgilər və digər fərqli çalarlarda seçilirdi".

Aktyorun Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan"da Fərhad, İ. İbrahimovun "Anaların divanı"nda Yusif İdris, Cəfər Cabbarlının "1905-ci ildə"əsərində Eyvaz, "Aydın"da Surxay, "Yaşar"da Toğrul, "Oktay Eloğlu"da Aslan bəy, Sabit Rəhmanın "Xoşbəxtlər"ində Sadıq, "Əliqulu evlənir"də Azad, "Küləklər"də Əlibala, Səməd Vurğunun "Fərhad və Şirin"ində Şiruyə obrazları onun uğurlu rolları silsiləsinə daxildir.

Müasirlərinin dediklərinə görə, Əməkdar artist Qurban Abbasov hər zaman səhnədə roldan-rola inkişaf edən, bir qədər də narahatlıqla hər bir mizanı və obrazın daxili aləmini dərindən öyrənməyə ciddi səy göstərən bir yaradıcı şəxs olub. Onun Xalq artisti Vaqif Şərifovun quruluşunda tənqidçi-estet İslam İbrahimovun "Anaların divanı" faciəsində yaratdığı Yusif İdris obrazı maraqla baxılan surətlərindən idi.

Qurban Abbasov, həmçinin xarici müəlliflərin əsərlərində yaddaqalan rollar oynayıb. Uilyam Şekspirin "III Riçard"ında IV Eduard, Qabrielya Zapolskayanın "Xanımın əxlaq dərsi"ndə Zbışko, Mustay Kərimin "Aygül diyarı"nda Kənar adam, Otar İoselianinin "Araba hələ aşmayıb" pyesində Buxuti, Maksim Qorkinin "Qoca"sında Pavel, Eduard Radzinskinin "Sokratla söhbətlər"ində Sokrat, Dias Valeyevin "Vicdan məhkəməsi" dramında Qarif kimi səhnə personajlarını hər zaman tamaşaçılar hərarətlə qarşılayıblar.

Görkəmli teatr və kino aktyoru, Xalq artisti Məmmədrza Şeyxzamanov aktyor haqqında yazırdı: "Gəncə Dövlət Dram Teatrının yaşlı nəslə mənsub aktyorları ilə gənc qüvvələr arasında möhkəm yaradıcılıq ünsiyyəti vardı. Belə gənc aktyorlar sırasında Qurban Abbasov xüsusi olaraq diqqəti cəlb etməklə, böyük sənət məktəbindən hər zaman bəhrələndiyini və inkişaf etdiyini göstərə bilir. Bu cür inkişaf və yaxınlıq yaradıcılıq baxımından etibarlı zəmindir".

1980-ci ildə Gəncə şəhərinin "Alimlər evi"ndə təşkil edilən Xalq teatrı ciddi planda tamaşaların hazırlanmasında böyük səylər göstərirdi. Məhz bu teatrın uğurlu fəaliyyətində bədii rəhbər olaraq Qurban Abbasovun fəaliyyəti diqqət mərkəzində idi. Onun fəaliyyəti nəticəsində Rövşən Musayev, Mehriban Atayeva, Rövşən Əliyev, Namiq Tahirov, Rauf Həsənov, Arif Qulami, Elnur Məmmədov, Murad Əliyev, Rəşid Nağıyev, Rüstəm Abdullayev kimi gənc istedadlar peşəkar aktyorlar olaraq yetişmişlər.

Aktyorun səhnə fəaliyyəti 1981-ci ildə Əməkdar artist fəxri adı ilə dəyərləndirilib. Qurban Abbasov 5 dekabr 1998-ci ildə Gəncədə vəfat edib. Amma cismani yoxluğu onun mənəvi varlığını əsla unutdurmayıb. Ruhu şad olsun!

*Anar Ərtoğrul BURCƏLİYEV,*
*teatrşünas*